*Tarix fakültəsi - 105*

**UOT 94(479.24); UOT 902**

**TARİX DOSTİYEV**
*Bakı Dövlət Universiteti*
*Arxeologiya və Etnoqrafiya kafedrasının müdiri, tarix elmləri doktoru*
**dostiyev.tarikh@mail.ru**

# BDU-NUN ARXEOLOGİYA VƏ ETNOQRAFİYA KAFEDRASININ TARİXİNƏ DAİR

DOI: https://doi.org/10.36719/2708-065X/106/78-84

*Məqalədə BDU-nun Tarix fakültəsinin Arxeologiya və Etnoqrafiya kafedrasının xalqımızın tarixinin, mədəni irsinin tədqiqi, tədrisii və təbliği istiqamətində fəaliyyətindən bəhs olunur. Kafedranın keçdiyi yol heç də hamar olmamış, yüksəliş və tənəzzül mərhələləri biri-digərini əvəz etmişdir. Məqalədə kafedranın təşkilində, tədris prosesində və elmi tədqiqat istqamətlərinin müəyyənləşdirilməsində önəmli rol oynamış görkəmli arxeoloq və etnoqrafların elmi-pedaqoji fəaliyyətinə nəzər yetirilir, onların peşəkar arxeoloq və etnoqrafların hazırlanmasında, Azərbaycan arxeologiyasının və etnoqrafiyasının ümdə problemlərinin həllində elmə verdikləri töhfələr diqqətə çatdırılır.*

*Açar sözlər:* Bakı Dövlət Universiteti**,** Arxeologiya və etnoqrafiya kafedrası**,** arxeoloq, Yevgeni Paxomov, Məmmədəli Hüseynov.

***Giriş.*** BDU-nun Tarix fakültəsinin Arxeologiya və Etnoqrafiya kafedrası Arxeologiya, etnologiya, etnoqrafiya və antropologiya üzrə müasir tələblərə uyğun yüksək ixtisaslı, peşəkar, siyasi cəhətdən sabit, vətənpərvər mütəxəssislərin hazırlanmasını təmin edir. Azərbaycanda arxeologiyanın təsisatlanması Bakı Universiteti ilə bağlı olmuşdur. 1919-cu ilin dekabrında Bakı Universiteti nəzdində "Müsəlman Şərqini öyrənən Cəmiyyət" yaradıldı. Cəmiyyət Azərbaycanın arxeoloji öyrənilməsini, Şabran şəhərinin xarabalıqlarının axtarılmasını, Nizami Gəncəvinin qəbirüstü abidəsinin tədqiqini, Bakı ətrafındakı tarixi abidələrin öyrənilməsini ön plana çəkmişdi. Cəmiyyətin fəaliyyətində Cavad bəy Rəfibəyli, şərqşünas L.A.Zimin, Qafqaz Tarix-arxeologiya İnstitutunun üzvü E.A.Belyayev, numizmat Y.A.Paxomov, general-leytnant M.B.Sulkeviç mühüm rola malik idilər. Elmi tədqiqat işlərinə Tarix-filologiya fakültəsinin ilk əməkdaşlarından olan şərqşünas Lev Aleksandroviç Zimin rəhbərlik edirdi. 1920-ci ilin martında onun "Müsəlman Şərqini öyrənən Cəmiyyət"in iclasında "Azərbaycanın arxeoloji, etnoqrafik və lingvistik cəhətdən tədqiqi üzrə suallar tərtib etmək" adlı məruzəsini cəmiyyətin fəaliyyət proqramı kimi də dəyərləndirmək olar. Lakin aprel hadisələri "Müsəlman Şərqini öyrənən Cəmiyyət"in qarşıya qoyduğu vəzifələri gerçəkləşdirməyə imkan vermədi. Cəmiyyətin üzvlərin bəziləri terrora məruz qaldı, elmi tədqiqat işlərinin təşkilində fəal olan L.A.Zimin güllələndi [1, s.192]. Cəmiyyətin terrora məruz qalmayan üzvləri, o cümlədən Y.A.Paxomov sovet dövrünün ilk çağlarından ömrünün sonunadək Azərbaycanda arxeologiya və numizmatika elmlərinin inkişafında, Bakı Dövlət Universitetində tədris və elmi tədqiqatların təşkilində fəal iştirak etdi.

***Müzakirə.*** 1922-ci ildə Bakı Dövlət Universitetində "Arxeologiya, numizmatika, etnologiya və etnoqrafiya" kafedrası təşkil olundu və 1922-1930-cu illərdə həmin kafedraya Evgeni Paxomov rəhbərlik etdi.

Yevgeni Paxomov 1880-ci ildə Stavropol şəhərində anadan olmuş, Peterburq Arxeologiya İnstitutunun institutunu bitirmiş, 1919-cu ildə Bakıya köçmüş, 1920-ci ildə Bakı universitetinin elmi bir-

liyinin həqiqi üzvü seçilmiş, ömrünün 45 ili universitetlə bağlı olmuşdur. O, universitetdə Azərbaycan tarixi, Şərq numizmatikası, Arxeologiya fənlərindən dərs demiş, universitetdə numizmatik kabinə (müns-kabinet) təşkil etmişdi. Onun 1923-cü ildə dərc olunmuş "Azərbaycan tarixinin qısa kursu" adlı kitabı Azərbaycan tarixi üzrə ilk dərs vəsaitidir. Y.A.Paxomov Bakıda İçərişəhərin, Örənqala (Beyləqan), Şabran şəhər yerlərinin, Dərbənd, Gilgilçay, Beşbarmaq sədlərinin, Abşeronun orta əsr qalalarının, Bayıl qəsrinin, Şamaxıda Gülüstan qalasının, Qarabağda Əsgəran qalasının ilk tədqiqatçılarından hesab edilir.

1944-1946-cı illərdə Davud bəy Şərifov Tarix fakültəsində Etnoqrafiya fənnindən mühazirələr aparmışdır. Azərbaycanın bir çox görkəmli arxeoloq və etnoqraflarına, o cümlədən Məmmədəli Hüseynov, Teymur Bünyadov, İdeal Nərimanov, Qara Əhmədova onun mühazirələrini dinləmək nəsib olmuşdur. Professor Məmmədəli Hüseynov mühazirələrində Davud bəy Şərifovun Tarix fakültəsindəki yüksək keyfiyyətli dərslərindən, tələbələrdə Azərbaycan arxeologiyasına və etnoqrafiyasına maraq oyatmasından, tələbələrə qayğısından böyük sevgi ilə söz açırdı, müəlliminin görkəmli alim və pedaqoq obrazını yüksək səviyyədə təqdim edirdi.



*Gülli Əbilova, Saleh Qazıyev və Yevqeni Paxomov*

Azərbaycanın ilk milli arxeoloqlarından Saleh Qazıyev on beş ildən artıq müddətdə, 1943-cü ildən 1958-ci iladək universitetin Tarix fakültəsində Arxeologiya fənnindən mühazirələr aparmış, gənc arxeoloq kadrların hazırlanmasında uğurla iştirak etmişdir. 1947-ci ildə Tarix fakültəsi nəzdində Arxeologiya kafedrası açılmış, 1953-cü iladək E.A.Paxomov rəhbərliyi ilə fəaliyyət göstərmişdi. Bu illərdə Saleh Qazıyevin universitet arxeologiyasına töhvələri müstəsna dərəcədə əhəmiyyətlidir. 1946-cı ildən başlanan və 1953-cü iladək davam edən müsli görünməmiş geniş miqyaslı Mingəçevir arxeoloji ekspedisiyasında milli arxeoloq kadrlara kəskin ehtiyac vardı. Saleh Qazıyev bu istiqamətdə fəaliyyətə başlayır, onun rəhbərliyi ilə 30 nəfərdən ibarət Tələbə elmi cəmiyyəti yaradılır ki, ondan 17 nəfər Arxeologiya qrupunun tərkibində idi. Arxeoloq kadrların hazırlanması məqsədi ilə Saleh Qazıyevin təklifi ilə 1949-cu ildən başlayaraq Tarix fakültəsində arxeologiya üzrə ixtisaslaşma təşkil olundu. Tələbələr Arxeologiya ixtisası üzrə diplom mövzuları götürərək araşdırma aparmaq və müdafiə etmək imkanını əldə etdilər. Onlar həm də Saleh Qazıyevin rəhbərlik etdiyi arxeoloji ekspesiyalarda iştirak edərək çöl tədqiqat üsulları ilə tanış olur, peşə vərdişlərinə yiyələnirdilər. Arxeoloq alimin təşəbbüsü ilə universitetdə zəruri avadanlıqlar və müvafiq ştat cədvəli ilə Arxeoloji kabinetin yaradılması mühüm hadisə idi. S.M.Qazıyevin təklifi ilə Arxeologiya kabineti Azərbaycanın müxtəlif bölgələrinə ekspedisiyalar təşkil etməli, əldə olunan artefaktlar həmin kabinetə təhvil verilməli idi [2, c.156-157]. Arxeologiya qrupunda olan tələbələr dərsdən kənar vaxtda Arxeologiya kabinetində, Azərbaycan Tarixi Muzeyində, arxeoloji ekspedisiyalarda olurdular. 50-ci illərin əvvəllərində tələbələr Mingəçevirdı, Daşkəsəndə, Ağcabədidə, Qazaxda və Abşeronda aparılan arxeoloji qazıntılarda iştirak etmişdilər [3, c.53]. Həmin tələbələrin bir çoxu sonradan Azərbaycanın görkəmli arxeoloqları oldular. Onlardan birinin – tələbə Qara Əhmədovun Yaloylutəpə mədəniyyəti daşıyıcılarının digər regionlar, ölkələrlə əlaqələrinə həsr olunmuş referatına yazdığı müsbət rəydə Saleh Qazıyev qeyd edir ki, tələbə

Qara Əhmədov böyük bacarığa sahibdir, arxeoloji qazıntılarda təcribə toplayıb, onun yaxşı mütəxəssis arxeoloq olması gözlənilir [2, c.160]. S.M.Qazıyev zənnində yanılmadı, Qara Əhmədov elmlər doktoru elmi dərəcəsi alan ilk azərbaycanlı arxeoloq oldu. Saleh Qazıyev bir sıra arxeoloqların dissertasiya işlərinin müdafiəsində rəsmi oppenent olmuş, onların iddia etdiyi alimlik dərəcəsinin almasına xeyir-dua vermişdir. Onlardan biri "Zaqafqaziyanın meqalitik tikililəri" mövzusunda dissertasiya işini müdafiə edən Gülli Əbilova idi. 1948-ci ildən Tarix fakültəsində elmi-pedaqoji fəaliyyətə başlayan Güllü Əbilova Arxeologiya fənnini tədris etmiş, ilk dəfə olaraq onun tərəfindən Azərbaycan dilində Arxeologiya fənni üzrə tədris proqramını tərtib olunmuşdur. Universitetdə zəngin arxeoloji fondun yaradılması da onun adı ilə bağlıdır [4, s.5-10].

50-ci illərdə "Arxeolgiya" kafedrasının bağlanması universitet arxeologiyasına mənfi təsir etdi. Ümumi tarix kaferasında tədris olunan "Arxeologiya" və "Etnoqrafiya" fənlərin tədrisində, Məmmədəli Hüseynovun universitetə dəvət olunmasına qədər arxeologiya üzrə elmi tədqiqatlarda nəzərə çarpaçaq nailiyyətlər qeydə alınmadı.

1976-cı ildə Tarix fakültəsində Arxeologiya və Etnoqrafiya kafedrası yenidən təşkil olundu, həmin ildən 1992-ci illədək ona görkəmli arxeoloq, Azərbaycan paleolit məktəbinin banisi professor Məmmədəli Hüseynov başçılıq etdi. Arxeoloq Məmmədəli Hüseynov XX əsrin ortalarınadək Azərbaycan paleoliti üzrə akademik dairələrdə formalaşmış yanlış təsəvvürləri darmadağın etməyə müvəffəq olmuş, «Aveydağ paleolit duşərgələri» mövzusunda dissertasiyasını 1960-cı ildə Tbilisidə uğurla müdafıə edərək, yüksək ixtisaslı paleolitşunas alimlər sırasına ilk azərbaycanlı mütəxəssis kimi daxil olmuşdur [5]. Məmmədəli Hüseynovun rəhbərliyi ilə keçən əsrin 60-80-ci illərində aparılmış arxeoloji tədqiqatlar Azıx mağara paleolit düşərgəsində ümumi qalınlığı 14,5 m olan on mədəni təbəqənin mövcudluğunun müəyyənləşdirilməsi ilə nəticələnmiş, bu abidənin Yaxın Şərq və Qafqaz ərazisində ən zəngin stratiqrafiyaya malik paleolit mağara düşərgəsi olduğu sübuta yetirilmişdir [6; 7]. M.M.Hüseynov Azıx paleolit düşərgəsində alt, X-VII təbəqələrindəki mədəni yatımını yeni arxeoloji mədəniyyət - "Quruçay mədəniyyəti" adı ilə elmi dövriyə daxil etmişdir [7, c.78]. O, alt mədəni təbəqələrinin xronoloji çərçivəsini əvvəlcə 1,2 mln il [7, c.78, 112], sonradan 1,5 mln ilə aid etmişdir [7, c.382].

Azıx mağara düşərgəsinin VI-V təbəqələrindən əldə olunmuş arxeoloji materiallar Aşel mədəniyyətini səciyyələndirməyə imkan vermişdir. Yeni mədəniyyətin daşıyıcılarının çapacaq, bifas, qaşov, itiuclulardan ibarət daş əmək alətləri texniki-tipoloji xüsusiyyətlərinə görə əvvəlki alətlərdən kəskin fərqlənirdi. VI təbəqədə ilk dəfə olaraq mükəmməl işlənmiş, mükəmməl, həndəsi formalı Aşel tipli əl çapacaqları aşkarlanmışdır. Onları ilk texnoloji standart kimi dəyərləndirmək olar. Artıq bu zaman ibtidai insanlar isinmə və yemək hazırlamaq üçün oddan istifadə etdiyə başlamışdılar.

Düşərgənin Orta Aşel dövrünə aid V təbəqəsinin tədqiqi nəticəsində daş artefaktlarla yanaşı ocaq yerləri, bəsit hörgü qalıqları, zəngin fauna qalıqları aşkarlanmışdır. Mağaranın daxilində sakral sahənin ayrılması, burada ayı kəllələrinin saxlanması da diqqəti çəkməyə bilməz. 1968-ci ilin tədqiqatları zamanı düşərgənin V təbəqəsində paleoantropoloji tapıntının, 350 min il əvvəl yaşamış ibtidai insana məxsus çənə fraqmentinin aşkarlanması isə paleolitşünaslıqda mühüm hadisə idi [7, c.35-42].


1


2

*Şəkil 2. 1-M.M.Hüseynov daş aləti tədqiq edir;*
*2. M.M.Hüseynov azıxantropa məxsus çənə fraqmentini nümayiş etdirir.*

Azıx mağara paleolit düşərgəsində aparılan tədqiqatlar və kəşflər nəinki Azərbaycanda, bütövlükdə bütün keçmiş SSRİ-də paleolitşünaslığın inkişafına təkan verdi, Qafqazın paleolit abidələrinə marağı artırdı.

Uzun illər ərzində paleolit düşərgələrində apardığı tədqiqatların yekunlarını ümumiləşdirdiyi «Azərbaycanın qədim paleoliti» mövzusunda dissertasiyasını Məmmədəli Hüseynov 1985-ci ildə Kiyev şəhərində uğurla müdafiə edərək tarix elmləri doktoru elmi dərəcəsini aldı. Sonradan monoqrafiya kimi çap olunan bu dissertasiya işində Cənubi Qafqazın ilkin məskunlaşmasının mərhələləri və xronologiyası, ilk miqrasiyalar, erkən dini inamların yaranması, ibtidai insana məxsus məskəndə ilk sakral sahənin ayrılması, paleolit incəsənətinin genezisi, erkən paleolit dövründə Azərbaycanın, Qafqazın paleocoğrafi şəraitinin rekonstruksiyası və s. öz həllini tapdı.

Azərbaycan Respublikasının prezidenti, müzəffər ali baş komandan cənab İlham Əliyev Azıx paleolit mağara düşərgəsini ziyarət edərkən abidənin Məmmədəli Hüseynov tərəfindən kəşf və tədqiq edilməsini xüsusi vurğulamışdır: "Azıx mağarasının girişindəyik. Təxminən 800 pillə qalxmışıq. Yaxşı idman etmişik, fiziki formamızı göstərmişik. İndi girəcəyik Azıx mağarasının içinə. Bu mağaranı azərbaycanlı alim, arxeoloq Məmmədəli Hüseynov 1960-cı ildə aşkar etmişdir və ondan sonra burada tədqiqatlar aparılmışdır. Bu, dünyanın ən qədim insanının yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir [8].

Böyük alim eyni zamanda gözəl pedaqoq idi, arxeologiyanın fəlsəfəsini, arxeoloji tədqiqat metodlarını, arxeoloji mədəniyyətləri, arxeoloji fikir tarixini tələbələrinə, öz dinləyicilərinə yüksək peşəkarlıqla şərh edirdi. Onun "Azərbaycan arxeologiyası (daş dövrü)" dərsliyi arxeologiya üzrə Azərbaycan dilində yazılmış ilk dərsliklərdən idi [9].

Məmmədəli Hüseynov nəzəri və praktik hazırlığın vəhdətinə xüsusi önəm verirdi, tarixçi tələbələrin Qarabağda, məşhur Azıx mağara paleolit düşərgəsində arxeoloji təcrübə keçməsini təşkil edirdi.



*Tarix fakültəsinin tələbələri arxeoloji təcribədə. Qobustan.1972-ci il.*

Məmmədəli Hüseynov Azərbaycanın maddi mədəniyyətinin qorunması və təbliği istiqamətində də fəal olmuşdur. Onun Bakı Dövlət Universiteti Tarix fakültəsində təşkil etdiyi Arxeologiya və etnoqrafiya muzeyi uzaq daş dövründən XX əsrədək xronoloji çərçivədə müxtəlif təyinatlı artefaktların cəmləşdiyi zəngin xəzinə idi. Qloballaşmanın, vesternizasiyanın gücləndiyi, mədəni məkanda özəlliklərin, məhəlli xüsusiyyətlərin silinməsinin sürətlənməsi prosesinin dərinləşdiyi müasir dünyada Muzeyin zəngin eksponatları xalqımızın maddi yaddaşı olaraq nəsillərin mədəni təcrübəsinin ötürülməsində, milli özünüdərk və mənəvi tələblərin formalaşmasında əhəmiyyətli ocaq idi.

Məmmədəli Hüseynov arxeoloji biliklərin geniş oxucu auditoriyasına çatdırmaq istiqamətində də səmərəli fəaliyyət göstərmişdi. Onun bu istiqamətdə yazılmış əsərlərində arxeologiya, tarix, geologiya, paleocoğrafiya, paleontologiyanın harmoniyası vardı.

1993-2003-cü illərdə kafedraya rəhbərlik edən professor Həvil Həvilovun Azərbaycanda ənənəvi təsərrüfat həyatının, xüsusilə də maldarlıq təsərrüfatının etnorafik aspektlərinin araşdırılmasına böyük töhfələr vermişdir. Onun ali məktəblər üçün yazdığı "Etnoqrafiyanın əsasları", "Azərbaycan etnoqrafiyası", "Dünya xalqlarının etnoqrafiyası" adlı dərslikləri Azərbaycanda etnoqrafiya sahəsi üzrə yazılan ilk keyfiyyətli dərsliklərdir və bu gündə əhəmiy-yətini saxlamaqdadır. O, yüksəkixtisaslı etnoqraf kadrların hazırlanması işinə töhfələr vermiş, onun rəhbərliyi ilə fəlsəfə doktoru və elmlər doktoru dissertasiyaları yazılaraq uğurla müdafiə olunmuşdur.

Qarabağ və Şərqi Zəngəzurun tunc dövrü abidələrinin görkəmli tədqiqatçısı, Kür-Araz mədəniyyətinin nəzəri məsələlərinin işlənməsində xüsusi xidmətləri olan professor Qüdrət İsmayılzadə 2004-2019-cü illərdə Arxeolgiya və etnoqrafiya kafedrasına rəhbərlik etmiş, "Arxeologiya" fənni üzrə tələbələrə yüksək məzmunlu mühazirələr oxumuş, yüksək ixtisaslı arxeoloq kadrların hazırlanmasında yaxından iştirak etmişdir. Dərin biliyi, mürəkkəb məsələləri sadə, asan başa düşülən tərzdə təqdim etmək bacarığı, incə yumorları ilə tələbə auditoriyasının hörmət və sevgisini qazanmışdı.

Qüdrət İsmayılzadənin ilk elmi tədqiqatları Qazax bölgəsi ərazisi ilə bağlı olmuşdur. 1964-cü ildə Tbilisi Dövlət Universiteti nəzdindəki İxtisaslaşdırılmış Şurada "Baba-Dərviş qədim yaşayış yerinin arxeoloji tədqiqi" mövzusunda dissertasiya işini uğurla müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi almış, Kür-Araz mədəniyyəti problemi üzrə ciddi tədqiqatçılar sırasına qoşulmışdur.

1964-cü ildə Qüdrət müəllim Qarabağda, Quruçay və Göndələnçay vadilərində arxeoloji abidələrin axtarış və qeydə alınması məqsədi ilə yaradılan ekspedisiyaya rəhbər təyin edilir. Bir neçə il ərzində onlarla arxeoloji abidə aşkarlanaraq qeydə alınır. Həmin abidələr arasında Azərbaycan arxeologiya elmi üçün xüsusi əhəmiyyət kəsb edən etalon abidələr də var idi. Belə abidələrdən birində - çoxtəbəqəli Qaraköpəktəpə yaşayış yerində 1967-ci ildə stasionar arxeoloji qazıntılar başlanılır və tədqiqatlar 1988-ci ilədək davam edir. Qaraköpəktəpə yaşayış yerində onun rəhbərliyi ilə aparılan arxeoloji tədqiqarlar nəticəsində erkən tunc dövrdən orta əsrlərədək geniş xronoloji çərçivəyə sahib xalqımızın yurdsalma ənənələrinə və qədim memarlığına dair çoxlu tikinti qalıqları üzə çıxarılmış, təsərrüfat məişətinə, adət-ənənələrinə, dini görüşlərinə və incəsənətinə dair zəngin informasiya potensialına malik 10 mindən artıq artefakt əldə olunmuşdur [10].

Qüdrət İsmayılzadənin Şərqi Zəngəzurun arxeoloji abidələrinin öyrənilməsində də töhfələri böyükdür. O, keçən əsrin 60-cı illərin sonu - 70-ci illərində Kəlbəcərdə e.ə. IV-I minilliklərə aid edilən mindən artıq qayaüstü rəsmləri qeydə alaraq tədqiq etmiş, 1976-cı ildə ilk dəfə olaraq Azərbaycanın yüksək dağlıq bölgəsində e.ə. III minilliyə aid istehkamlı yaşayış yerinin qalıqlarını aşkarlamışdır. Ümumiyyətlə, Azərbaycan ərazisində qədim qayaüstü təsvirlərin öyrənilməsi professor Qüdrət İsmayılzadənin elmi araşdırmalarının mühüm bir istiqamətini təşkil edirdi. Onun Azərbaycanın qayaüstü rəsmlərinin səciyyəsi və Avrasiya məkanın ən qədim incəsənətində onların yeri ilə bağlı araşdırmaları mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir [10].

Professor Q.S.İsmayılzadə Azərbaycan arxeologiyasının ümumi və nəzəri məsələlərinin araşdırılmasında, onun nəzəri səviyyəsinin yüksəldilməsində də yaxından iştirak etmişdir. Onun erkən əkinçi təsərrüfat-məişət komplekslərinin öyrənilməsi metodikasına, çoxtəbəqəli abidələrin xüsusiyyətlərinə, erkən əkinçilik dövrünün səciyyəsinə dair araşdırmaları bu qəbildəndir.

Qüdrət İsmayılzadə Altıntəpə abidəsinin, Troya şəhərinin arxeoloji qazıntılarında iştirak edən azərbaycanlı arxeoloqdur. O, Azərbaycan elmini beynəlxalq elmi məclislərdə layiqincə təmsil etmiş, onun Azərbaycan arxeologiyasının aktual problemləri üzrə məzmunlu məruzələri maraqla qarşılanmış və yüksək qiymətləndirilmişdir.

Professor Q.S.İsmayılzadə Azərbaycan arxeologiya elmini beynəlxalq elmi məclislərdə uğurla təmsil edirdi. Onun Moskva, Sankt-Peterburq, Ştutqart, Tubengen, Saar-Bruken, Berlin, Ankara, İzmir, Aşqabad, Bişkek, Buxara, Səmərqənd, Tehran, Tbilisi şəhərlərində keçirilən elmi konfrans və simpoziumlarda Azərbaycan arxeologiyasının ayrı-ayrı aktual problemləri üzrə məzmunlu məruzələri maraqla qarşılanmış və yüksək qiymətləndirilmişdir.

Qüdrət İsmayılzadənin "Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri", "Arxeoloqun çöl gündəliyindən" kitabları, "Azərbaycan arxeologiyası" jurnallarında dərc olunan silsilə məqalələri Azərbaycanın qədim mədəni irsinin, qədim və zəngin tarixinin təbliğində, geniş oxucu kütləsinə çatdırılmasında olduqca əhəmiyyətlidir. 10-dan artıq fəlsəfə doktoru və 1 elmlər doktoru dissertasiyasına rəhbərlik etmiş Qüdrət İsmayılzadənin yüksək ixtisaslı kadrların hazırlanmasında da xidmətləri böyükdür.

Kafedranın antropologiyanın tədrisi və antropologiya üzrə elmi problemlərin araşdırılması nailiyyətləri yetərincədir. 2019-2023-cü illərdə kafedra müdiri olmuş dos. Kərəm Məmmədovun bu istiqamətdə araşdırmaları xüsusilə diqqətəlayiqdir. O, "Antropologiyanın əsasları" "Qafqaz xalqlarının etnoqrafiyası", "Etnoqrafiya", "Qafqaz xalqlarının etnoqrafiyası", və "Antropometriya" fənləri üzrə mühazirələr oxumuş, seminar məşğələri aparmış, "Antropologiyanın əsasları" və Qafqaz xalqlarının etnoqrafiyası" dərsliklərini yazmışdır.

Kafedrada müxtəlif illərdə həmçinin Azərbaycanın bir çox görkəmli alimləri, o cümlədən İsaq Cəfərzadə, Cabbar Xəlilov, Məşədixanım Nemət, Əli Rəcəbli, Adil Sadıqov, Faiq Əliyev, Nəsimi Quliyev fəaliyyət göstərmiş, mühazirələr aparmışlar.

***Nəticə.*** Hal-hazırda kafedrada 10 əməkdaş, o cümlədən bir tarix elmləri doktoru, yeddi tarix üzrə fəlsəfə doktoru çalışır. Kafedra kollektivinin qarşısında onilliklər ərzində elmi-pedaqoji fəaliyyətin əsasını təşkil edən prioritet mövzularda səyləri cəmləşdirməklə yanaşı, tarixi biliklərin yenilənməsinə yönəlmiş, multidissiplinar kompleks tədqiqatlara əsaslanan, Azərbaycanın dünya tarixinə və mədəniyyətinə töhfələrinin müəyyənləşdirilməsi, müxtəlif dövrlərdə Azərbaycan mədəniyyətində ənənə, innovasiya, mədəniyyətlərin qarşılıqlı təsir problemlərinin nəzərə alınması, ”tarixdə insan” problemini diqqət mərkəzində saxlanılması konteksində fundamental və tətbiqi elmi araşdırmaların aparılması, tədris kurslarının işlənib hazırlanması, professor Məmmədəli Hüseynov adına ”Arxeologiya və etnoqrafiya muzeyi”nin bərpası və ekspozisiyasının müasir tələblərə uyğun yenidən qurulması əsas vəzifələrdir. Kafedra yerli və xarici ölkələrin müfaviq elmi-təhsil qurumları ilə əlaqələrin qurulmasına, birgə layihələr üzrə araşdırmalara xüsusi önəm verir.

## ƏDƏBİYYAT


1. Dostiyev T.M. Azərbaycanda İslam arxeologiyası: başlanğıc, müasir durumu, perspektivləri // Müsəlman Şərqində ilk parlamentli Respublika. Azərbaycan Xalq Cumhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları. Bakı, 2018, s. 191-193.
2. Джафарова Э.Б. Вклад Салех Мустафа оглы Казиева в развитие археологии Азербайджана. Баку: Элм, 2009. 224 с.
3. Ваидов Р.М., Нариманов И.Г. Развитие археологической науки в Советском Азербайджане // Советская археология, 1967, №4, с. 48-61.
4. İsmayılzadə Q.S. Sonu görünməyən axtarış yollarında... // Əbilova G. Cənubi Qafqazın Meqalit abidələri. Bakı, 2020, c.5-10
5. Dostiyev T.M. Qafqazın ulu keçmişini kəşf edən alim: professor Məmmədıli Hüseynovun 100 illik yubileyinə // Bakı universitetinin xəbərləri, 2022, №2, s. 105-114.
6. Azıx mağarası – Homo nəslinin beşiyidir: Məmmədəli Hüseynovun tədqiqatları. İki cilddə. I cild. Bakı: Bakı Dövlət Universiteti, 2022, 492 s.
7. Азыхская пещера – колыбель рода Homo: исследования Мамедали Гусейнова. В двух томах, том II. Баку: Бакинский государственный университет, 2022, 464 с.
8. İlham Əliyev Füzuli və Xocavənd rayonlarında olub / Azərbaycan Respublikası Prezidenti (rəsmi sayt), 15 mart 2021. - https://president.az/az/articles/view/50893/ [10.10.2024].
9. Hüseynov M.M. Azərbaycan arxeologiyası (dərslik). Bakı: ADU–nun nəşriyyatı, 1975, 165 s.
10. Dostiyev T.M. Arxeologiya fənninin tədrisinin bəzi məsələləri // Azərbaycanın ictimai-siyasi həyatında Bakı Dövlət Universitetinin Tarix fakültəsinin yeri və rolu. Respublika elmi konfransının materialları. Bakı:Füyuzat, 2021, s. 139-143

**ТАРИХ ДОСТИЕВ**
*Заведующий кафедрой Археологии и этнографии Бакинского государственного университета, доктор исторических наук*

## ОБ ИСТОРИИ КАФЕДРЫ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ БГУ

В статье говорится о деятельности кафедры Археологии и Этнографии Исторического факультета Бакинского Государственного Университета в области научных исследований, преподавания и пропаганды истории и культурного наследия Азербайджана. Пройденный кафедрой путь не был столь гладким, этапы роста и упадка сменяли друг друга. В статье уделено внимание научно-педагогической деятельности археологов и этнографов, сыгравших важную роль в становлении кафедры, в организации учебного процесса, в определении направлений научных исследований, и вкладе их в науку, и подготовку профессиональных археологов и этнографов, а также в решение важнейших проблем археологии и этнографии Азербайджана.

*Ключевые слова*: Бакинский Государственный Университет, кафедра Археологии и этнографии, археолог, Евгений Пахомов, Мамедали Гусейнов.

**TARIKH DOSTIYEV**
*Head of Department of Archaeology and Ethnography of the Baku State University, Doctor of Historical Sciences*

## ABOUT THE HISTORY OF THE DEPARTMENT OF ARCHAEOLOGY AND ETHNOGRAPHY OF BAKU STATE UNIVERSITY

The article talks about the activities of the Department of Archaeology and Ethnography of the Faculty of History of Baku State University in the field of scientific research, teaching and promotion of the history and cultural heritage of Azerbaijan. The route taken by the department was not so smooth, the stages of growth and decline replaced each other. The article pays attention to the scientific and pedagogical activities of archaeologists and ethnographers who played an important role in the formation of the department, in the organization of the educational process, in determining the directions of scientific research, and their contribution to science, and the training of professional archaeologists and ethnographers, as well as in solving the most important problems of archaeology and ethnography of Azerbaijan.

*Keywords*: Baku State University, Department of Archaeology and Ethnography, archaeologist, Evgeniy Pakhomov, Mamedali Huseynov.

*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*